

ŞAHMƏMMƏD DAĞLAROĞLU

# KİMƏ GƏRƏK İDİ SƏNİN ÖLMƏYİN?

*(Şair Oqtay İSMAYILLININ ölümünə)*

Kimə gərək idi sənin ölməyin?
Onsuz da inanmır bir kimsə buna.
Axı haqdan başqa var idi nəyin?
Can verdin ölümün haqq olduğuna.

Ev-eşiyin vardı özünə görə,
Niyə can atırdın o dar məzara?
Necə qovuşacaq yazmadıqların,
Tanrıya eşqinlə yazılanlara?

Gün qalxdı ölmünün sabahkı günü,
Şəfəqlər qol açıb qucdu qəbrini.
Yananlar söndürdü özü-özünü,
Sonsuz paklığında tapdı səbrini.

"Müqəddəs söz günü" söylədiklərin,
Qalacaq "Dodaqla dil arasında".
Adın dağdan uca, hörmətin dərin,
Nəsimi ağladı sənin yasında.

Sıraya düzülüb "Rübailər"in,
Arxanca baxırdı, boynu bükülü.
Göylərə sovruldu çəkdiyi ahdan,
Yanan ürəklərin soyumuş külü.

"Oqtayın ölümü" adlı əsərin,
İlləri adlayıb həqiqət oldu.
Dəfninə gəlmədi salxım söyüdlər,
O gecə, sübhədək saçını yoldu.

İlk dəfə yaşadım dost itkisini,
Nəyimə gərəkdir bu cür yaşamaq.
Dostda sədaqətə, vəfaya bax ki,
Ölümə də gedir dostundan qabaq.

Yaman qəfil gəldi, alıb apardı,
Ölum baxan deyil arzuya, yaşa.
Kim bilir, odlanıb kimlər baxacaq,
Adın həkk olunmuş soyuq bir daşa.

Kimə gərək idi sənin ölməyin?
Haqqa xoş oldumu bu matəm, bu yas?
Ölümün üzünü ağardan deyil,
Haqla görüş günü geydiyin libas...

***24 may 2020-ci il***

## *OQTAY (şəxsidə) NƏ YAZIRDI?*

Əzizimiz Əli bəy! Təəssüf ki, mənim kimi adamların imkanları çox məhduddur! Yoxsa "Xəzan"ın daha da böyüməsinə, əsas nəşr olmasına mütləq kömək edərdim. Sağlıq olsun, əgər dostum nahaq sıxıntılarından xilas olsa, mütləq onu öz kitablarımdan əvvəl "Xəzan"a lazım olan dəstəyi verməyə məcbur edəcəyəm. Hörmətlə: Sizin qoca olsa da, kiçik dostunuz Oqtay. Gecəniz xeyrə qalsın, səhəriniz xeyrə açılsın!

***

Tez-tez Şahməmməddən Sizi soruşuram. Allahın mərhəməti üstünüzdə olsun! Siz dostlara, yaxşı insanlara çox lazımsınız!

***

Allah qoysa, bu karantin qurtarandan sonra Sizinlə görüşə gələcəyəm! Sağlıqla qalın!
Qismət olsun. Görüşərik.